# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 17 (7112) *24 avqust 2021-ci il* Qiyməti 40 qəpik


## XVI Yay Paralimpiya Oyunları bu gün start götürür

### *Azərbaycan komandası böyük uğurlara iddialıdır*



***"Paralimpiyaçıların idmana olan sədaqəti və xüsusilə Azərbaycan paralimpiyaçılarının uğurları və beynəlxalq yarışlarda iştirakı böyük qəhrəmanlıqdır" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sözlərini növbəti dəfə təsdiqləmək ərəfəsində olan paralimpiyaçılarımız Tokiodadırlar.***

Yarım ay öncə başa çatmış Tokio-2020 Yay Olimpiya Oyunlarının ardından ənənəyə sadiq olaraq paralimpiyaçılar eyni şəhərdə öz ən mötəbər, ən vacib yarışlarına başlayırlar. "Tokio-2020" XVI Yay Paralimpiya Oyunları bu gün Yaponiya paytaxtında start götürür. Sentyabrın 5-dək davam edəcək mübarizəyə bu dəfə rekord sayda - 35 paralimpiyaçımız 6 idman növündə, 46 kateqoriyada qatılacaq. Əslində, Tokioya lisenziya qazanan paralimpiyaçılarımızın sayı 36 olub. Bir idmançımızın yarışlara qatıla bilməməsinin səbəbləri barədə bir qədər sonra danışacağıq.

Tokio Azərbaycan paralimpiyaçıları üçün 7-ci cınaqdır. 1996-cı ildən bəri 6 Paralimpiya Oyunlarında idmançılarımız 9-u qızıl, 18-i gümüş, 11-i bürünc olmaqla 38 medal qazanıblar. Təmsilçilərimizin ən uğurlu çıxışı 2012-ci ildə Londonda olub. Həmin yarışa qatılan 21 idmançımızdan 12-si vətənə qızıl medalla dönüb. Onlardan 4-ü fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bu dəfə paralimpiyaçılarımız Tokioya daha iddialı yollanıblar.

Azərbaycan nümayəndə heyətinin böyük əksəriyyəti artıq Tokiodadır. Gündoğar ölkəyə ilk olaraq üzgüçülərimiz yollanıblar. Səfərdən öncə avqustun 10-da üzgüçülük üzrə milli komandamızın üzvləri ilə Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) görüş olub. AMPK-nın prezidenti İlqar Rəhimov Paralimpiadaya lisenziya qazanmış idmançıların fiziki və psixoloji vəziyyəti ilə maraqlanaraq onlara uğurlar arzulayıb. İ.Rəhimov bildirib ki, pandemiya ilə bağlı məhdudiyyətlərə baxmayaraq, idmançılarımız "Tokio-2020"yə yüksək səviyyədə hazırlaşıblar. Onlar yerli və beynəlxalq təlim-məşq toplanışlarında, turnirlərdə iştirak ediblər. O, idmançıların Yaponiyadan yüksək nəticə ilə qayıdacaqlarına əmin olduğunu bildirib. Üzgüçülük üzrə milli Paralimpiya komandamızın baş məşqçisi Alaverdi Culfayev komandanın Tokioda uğurla iştirak edəcəyini və Vətənə medallar ilə qayıdacağını vurğulayıb.

Elə həmin gün Yaponiyaya yola düşən üzgüçülərimiz ilk olaraq Şika şəhərinə gəlib təlim-məşqlərə başlayıblar.

səh. 4

## Gənc güləşçilərimiz dünya çempionatında 11 medal qazanıblar



***Rusiyanın Ufa şəhərində gənc güləşçilərin dünya çempionatı keçirilib. Azərbaycan komandası bu nüfuzlu yarışda uğurla çıxış edib.***

İki illik fasilədən sonra təşkil olunan mundialın ilk günlərində sərbəst güləş üzrə mübarizə baş tutub. Məsul yarışda ölkəmizi təmsil edən gənclərdən ibarət sərbəst güləş millimizin heyətində böyük məşqçi Cəbrayıl Həsənov, məşqçilər Rövşən Hacıyev və Nazim Əlicanovun rəhbərliyi altında Nurəddin Novruzov (57 kq), Əbülfəz Nəsirov (61 kq), Zirəddin Bayramov (65 kq), Cəbrayıl Hacıyev (70 kq), Turan Bayramov (74 kq), Əşrəf Aşırov (79 kq), Saqadulla Ağayev (86 kq), Abdulcəlil Şabanov (92 kq) və Aydın Əhmədov (125 kq) DÇ-də uğur qazanmağa çalışıblar.

İlk yarış günündə 57, 65, 70, 79 və 97 kq-da çıxış edən sərbəst güləşçilər xalça üzərinə çıxıblar.

səh. 2

## Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq *qərara alıram:*

XXXII Tokio Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Stadnik Mariya Vasilyevna

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Ağayev Rəfael Mahir oğlu
Əliyev Hacı Azər oğlu
Zaretska İrina İqorevna

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Alfonso Domingez Loren Berto Berto
Kindzerska İrina
Hüseynov Rafiq Radik oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**
Ağayev Aslan Loğman oğlu
Əzimzadə Elman Süleyman oğlu

**"Tərəqqi" medalı ilə**
Cəfərov Vüsal Səfa oğlu
Məmmədov Anar Vahid oğlu
Məmmədov Orxan Rasim oğlu
Musayev Füzuli İsa oğlu
Hüseynov Radik Rafiq oğlu
Tarakanov Aleksandr Petroviç
Horta Dominguez Humberto.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 avqust 2021-ci il*

## Azərbaycan Milli Olimpiya komandası üzvlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq *qərara alıram:*

XXXII Tokio Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançılarının aşağıda adları çəkilən məşqçiləri "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Abdullayev Namiq Yədulla oğlu
Beşirov Yaşar Eyyub oğlu
Məmmədov Rəşad Nizami oğlu
Morozov Denis Valeryeviç
Tağıyev Qurban Vaqif oğlu.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 avqust 2021-ci il*

## Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə *qərara alıram:*

**1.** Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

**1.1.** ikinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

**1.2.** üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 avqust 2021-ci il***

## "Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında"

### Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərini Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədilə,

**1.** XXXII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

**1.1.** İkinci yeri tutan hər bir idmançıya 100 min manat, onun məşqçisinə 50 min manat;

**1.2.** Üçüncü yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə 25 min manat;

**1.3.** Komandanın baş məşqçisi-idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

**2.** Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin maliyyə idarəsi sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti***
***Bakı şəhəri, 12 avqust 2021-ci il***

## Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın yeni tərkibdə ilk iclası keçirilib



***Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın yeni tərkibdə ilk iclası keçirilib. Onlayn formatda keçirilən iclasda iştirak edən nazir müavini İntiqam Babayev yeni tərkibə uğurlar arzulayıb.***

İ.Babayev İctimai Şuranın nazirliklə ictimaiyyət arasında daha səmərəli qarşılıqlı fəaliyyətin təşkili, gənclər və idman sahələrində dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması, vətəndaşların hüquqlarının müdafiəsi məqsədilə nazirlik yanında ictimai əsaslarla fəaliyyət göstərən məşvərətçi qurum olduğunu qeyd edib.

İctimai Şuranın hər bir üzvünün daha fəal olmasının vacibliyini vurğulayan nazir müavini qarşılıqlı fəaliyyət nəticəsində gənclər və idman sahələrində dövlət siyasətinin həyata keçirilməsində İctimai Şuranın faydalı rol oynayacağına ümidvar olduğunu bildirib.

Sonra İctimai Şuranın sədri və sədr müavini, katibinin seçilməsi üçün səsvermə keçirilib. Səsvermənin nəticələrinə görə, İctimai Şuranın sədri vəzifəsinə Azər Əliyev (Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası) seçilib. Azad Mənaflı ("İsmayıllı İntellektual Oyunlar Klubu" İctimai Birliyi) sədr müavini, İntiqam Cavanşir (Dünya Gənc Türk Yazarlar Birliyi) isə katib vəzifələrinə seçiliblər.

## Gənc güləşçilərimiz dünya çempionatında 11 medal qazanıblar




*(Əvvəli 1-ci səhifədə)*

Güləşçilərimizdən Zirəddin Bayramov ilk görüşdə tacikistanlı güləşçini üstələyib. Bayramov gürcü rəqibi ilə qarşılaşmada hesabda 2:5 geridə olsa da, inanılmaz əzmkarlıq göstərərək tam üstünlüklə qalib gəlib və yarımfinala yüksəlib. ABŞ təmsilçisinə də gücünü göstərən Zirəddin finala çıxıb. Bayramov həlledici görüşdə yerli güləşçiyə məğlub olub və gümüş medalı boynundan asıb.

Cəbrayıl Hacıyev 1/8 finalda Bolqarıstandan olan rəqibinə tam üstünlüklə qalib gəlib. İsveç idmançısına da heç bir şans tanımayan Hacıyev yarımfinala adlayıb. Cəbrayıl finalın bir addımlığında Rusiya güləşçisini də məğlub edib. Finalda İran pəhləvanı ilə gərgin keçən mübarizədə minimal fərqlə uduzan millimizin üzvü dünya ikincisi olub.

Əşrəf Aşırov ilk qarşılaşmalarda Latviya və Monqolustan güləşçilərini məğlub edib. Qırğızıstan idmançısından da güclü olan Aşırov yarımfinala vəsiqə qazanıb. Əşrəf Qazaxıstandan olan rəqibinə də heç bir şans tanımayaraq adını finala yazdırıb. Həlledici görüşdə İran güləşçisi ilə qarşılaşan Aşırov rəqibinə məğlub olaraq ölkəmizə 3-cü gümüş medalı qazandırıb.

İkinci yarış günündə Turan Bayramov 1/8 finalda almaniyalı güləşçini vaxtından əvvəl xalçadan məyus yola salıb. ABŞ təmsilçisi ilə qarşılaşmada 5:1 öndə olsa da, yekunda rəqibinə uduzub. Amerikalı güləşçinin finala çıxması Bayramova təsəlliverici görüşdə iştirak hüququ verib. Ancaq Macarıstan idmançısı xalçaya çıxmadığı üçün Turan birbaşa 3-cü yer uğrunda qarşılaşmada iştirak hüququ əldə edib. Rusiya təmsilçisi ilə həlledici görüş gərgin mübarizə şəraitində keçib. Yekunda minimal hesabla qələbə qazanan Bayramov dünya üçüncüsü olub.

Saqadulla Ağayev debütdə Qırğızıstan idmançısına qalib gəlib. Lakin növbəti mərhələdə Fransadan olan rəqibinə yenilib. Fransalı idmançının finala yüksəlməsi milli üzvünə bürünc medal qazanmaq şansı verib. Saqadulla təsəlliverici görüşdə moldovalı rəqibindən güclü olub. Türkiyə pəhləvanını sonuncu xal prinsipinə əsasən üstələyən Ağayev bürünc medalı boynundan asıb.

Beləliklə, yarışa 9 idmançı ilə yollanan millimizin 5 üzvü fəxri kürsüyə qalxıb. Zirəddin Bayramov (65 kq), Cəbrayıl Hacıyev (70 kq) və Əşrəf Aşırov (79 kq) gümüş, Turan Bayramovla (74 kq) Saqadulla Ağayev (86 kq) isə bürünc medal qazanıb.

Beləliklə, komandamız yekunda 122 xal toplayaraq dünyada 4-cü yeri tutub.

Qızlardan ibarət millimizin heyətində böyük məşqçi Həsrət Məmmədyarov və məşqçi Solmaz Adilovanın rəhbərliyi altında Gültəkin Şirinova (50 kq), Elnurə Məmmədova (53 kq), Jalə Əliyeva (59 kq), Birgül Soltanova (62 kq) və Nigar Mirzəzadə (65 kq) qüvvələrini sınayıblar.

Yarışın üçüncü günündə qadın güləşi üzrə mübarizəyə start verilib.

Güləşçilərimizdən mübarizəyə 1/4 finaldan qoşulan Jalə Əliyeva Polşa təmsilçisinə qalib gələrək yarımfinala yüksəlib. Lakin yarımfinalda Rusiya güləşçisinə məğlub olub. Güləşçimiz bürünc medal uğrunda Hindistan idmançısı ilə qarşılaşıb və rəqibinə qalib gələrək dünya üçüncüsü olub.

Dördüncü yarış günündə 3 qadın güləşçimiz mübarizəyə qoşulub.

Yarışa 1/4 finaldan qoşulan Birgül Soltanova Qırğızıstan güləşçisi ilə gərgin keçən görüşdən qalib ayrılaraq adını yarımfinala yazdırıb. Finalın bir addımlığında Hindistan təmsilçisi ilə qarşılaşan Birgül 5:0 hesabı ilə öndə olsa da, yekunda üstünlüyü əldən verib və ümidini bürünc medala bağlayıb. Həlledici görüşdə Soltanova rəqibini "tuşe" ilə üstələyərək dünya üçüncüsü olub.

Beləliklə, dünya çempionatına 5 idmançı ilə yollanan millimiz yarışı 2 bürünc medalla başa vurub.

Yunan-Roma güləşi üzrə milli komandada böyük məşqçi Nurəddin Rəcəbov, məşqçilər Emin Əhmədov və Zöhrab Abbasovun rəhbərliyi altında Elmir Əliyev (55 kq), Nihat Məmmədli (60 kq), Ziya Babaşov (63 kq), Həsrət Cəfərov (67 kq), Xasay Həsənli (72 kq), Elcan Məmmədov (77 kq), Murad Əhmədiyev (82 kq), Laçın Vəliyev (87 kq) və Sərxan Məmmədov (130 kq) iştirak ediblər.

Yarışın beşinci günündə 55, 63, 77, 87 və 130 kq-da çıxış edən yunan-Roma güləşçiləri mübarizəyə qoşulub.

Elmir Əliyev 1/8 finalda iranlı həmkarı ilə gərgin mübarizə şəraitində keçən görüşdə minimal fərqlə uduzub. Rəqib finala yüksəldiyi üçün həmyerlimiz təsəlliverici görüşə çıxıb və Türkiyə idmançısına qalib gəlib. Həlledici qarşılaşmada Qazaxıstan təmsilçisinə də gücünü göstərən Əliyev dünya çempionatının bürünc medalını boynundan asıb.

Sərxan Məmmədov ilk görüşdə iranlı rəqibini minimal fərqlə üstələyib. Məmmədov polşalı güləşçiyə də gücünü göstərərək yarımfinala adlayıb. Yunanıstan təmsilçisi ilə gərgin keçən mübarizədən də qalib ayrılan Sərxan finala yüksəlib. Həlledici görüşdə son Avropa çempionu ilə qarşılaşan güləşçimiz türkiyəli rəqibinə məğlub olub və dünya çempionatının gümüş medalını qazanıb.

Altıncı yarış günündə daha 4 yunan-Roma güləşçimiz mübarizəyə qoşulub.

Nihat Məmmədli 1/8 finalda Hindistan idmançısını çətinlik çəkmədən üstələyib. Tacikistandan olan rəqibinə də heç bir şans tanımayan Məmmədli adını yarımfinala yazdırıb. Ancaq Nihat Rusiya güləşçisi ilə bacarmayıb. Bürünc medal uğrunda görüşdə Özbəkistan idmançısından güclü olan həmyerlimiz dünya çempionatında üçüncü yeri tutub.

Həsrət Cəfərov dünya çempionatına inamla start verərək finlandiyalı rəqibini elə ilk hissədə tam üstünlüklə məğlub edib. Həmyerlimiz Gürcüstan güləşçiyə də eyni aqibəti yaşadıb. Cəfərov 1/4 finalda yerli güləşçi ilə gərgin keçən mübarizədən də qalib ayrılaraq yarımfinala yüksəlib. Finalın bir addımlığında Fransanı təmsil edən erməni güləşçisi ilə qarşılaşan həmyerlimiz bu rəqibinə də tam üstünlüklə qalib gəlib. Həlledici görüşdə Ermənistan idmançısısı ilə qarşılaşan Həsrət böyük fərqlə prinsipial qarşılaşmadan qalib ayrılaraq dünya çempionu olub.

Yekunda 4 medala sahib olan komandamız 101 xalla komanda hesabında dünya 3-cüsü olub.

# Azərbaycan millisinin birinci MDB Oyunları üçün heyəti açıqlanıb

***Sentyabrın 4-11-də Kazanda keçiriləcək birinci MDB Oyunlarında iştirak edəcək Azərbaycan milli komandasının heyəti açıqlanıb.***

Oyunlarda Azərbaycan komandası idmanın 13 növündə təmsil olunacaq. Badminton yarışlarında ölkəmizin idman şərəfini Amrı Xadafı, Dvi Panqestu, Aqil Qəbilov, Rəvan Niftəliyev, Nigar Əliyeva, Era Maftuha, Mədinə Nağıyeva və Həcər Nuriyeva qoruyacaqlar.

Basketbolun 3x3 növündə millimizin heyətində Cəbrayıl Əkbərov, Endər Poladxanlı, Elşad Şirzadov və Mert İlhan yer alıblar.

Boks yarışlarında ölkəmizi İbrahim Zeynalov, Ramal Yolçuyev, Tağı Nəsibov, Məhəmmədəli Qasımzadə, Ziya Həsənov, Aysu İsmayılova, Liliya Platova, Qızbəs İsgəndər və Emili Rzayeva təmsil edəcəklər.

Tarixdə ilk dəfə təşkil olunacaq Oyunların cüdo yarışlarında 16 idmançımız tatami üzərinə çıxacaq. Heyətdə Rövşən Əliyev, Yaşar Nəcəfov, Elçin Hüseynov, Nurlan Osmanov, Nərmin Əmirli, Murad Fətiyev, Zelim Tckaev, Adil Kərimli, Camal Feyziyev, Əhməd Yusifov, Ramilə Əliyeva, Şəfəq Həmidova, Zeynəb Məmmədova, Səbinə Əliyeva, Diana Şoranova və Südabə Ağayeva yer alıblar.

Birinci MDB Oyunlarının futzal yarışlarında çıxış edəcək milli komandamızın heyətində Xəzər Ağalizadə, Nurlan Məmmədov, Fərid Mikayılov, Məhəmməd Abbasov, Fariz Mehralıyev, Əli Mahmudov, Mirzə Əmirov, Şaiq Vəlizadə, Asiman Yusubov, Şahmar Cəfərli, Fuad Məmədzadə, Elgün Rzayev və Azər Fərmanov mübarizə aparacaqlar.

Emin Məmmədov, Kənan Pənahov, İbrahim Ansari, Adil Əhmədzadə, Nəzakət Qarayeva, Ləman Abdulhəmidova, Mərziyyə Nurmətova və Aylin Əsgərova stolüstü tennis yarışlarında gücləri sınayacaqlar.

Stend və güllə atıcılığı yarışlarında Xanna Əliyeva və Ramiz Xəlilov medallar uğrunda mübarizə aparacaqlar.

Karate yarışlarında ölkəmizi Əminağa Quliyev, Sultan Hüseynov, Hüseyn Məmmədli, Nuran Rzazadə, Tale Yaqubov, Fərid Ağayev, Abbas Dadaşov, Hüseyn Hüseynzadə, Musa Sarızadə, Osman Osmanlı, Ceyhun İsmayılov, Həsənəli Həsənov, İnci Əzizova, Mədinə Sadıxova, Renata Ərəbli, Səma İmanzadə, Zəhra Əliverdiyeva, Alika Semixova, Samirə Babayeva və Emiliya Mitlinova təmsil edəcəklər.

Kəmər güləşi yarışlarında Məhərrəm Eyvazov, Nahid Vəliyev, Sənubər Nəbiyeva və Aytəkin Paşazadə birincilik uğrunda mübarizə aparacaqlar.

Fərhad Ocaqverdiyev, Həsən Ağazadə, Əlisəftər Məmmədli, Elvar Nəhmətzadə və Camal Feyziyev küreş yarışlarında çıxış edəcəklər.

Qadın güləşi yarışlarında Şəhanə Nəzərova, Tatyana Varansova, Yasəmən Məcidli, Jalə Əliyeva, Birgül Soltanova və Ceyla Nağızadə, sərbəst güləşçilərimizdən Əliabbas Rzazadə, Tural Hüseynov, Sabir Cəfərov, Cəbrayıl Hacıyev, Əşrəf Aşırlı, Abubakr Abakarov, Osman Nurməhəmmədov, İslam İlyasov, Aydın Əhmədov, Turan Bayramov, yunan-Roma güləşi yarışlarında isə Elmir Əliyev, Nihat Məmmədli, Ziya Babaşov, Həsrət Cəfərov, Xasay Həsənli, Elcan Məmmədov, Murad Əhmədiyev, Laçın Vəliyev və Sərxan Məmmədov xalça üzərinə çıxacaqlar.

Sambo idman növündə ölkəmizi Nicat Məmmədli, Elvin Bağırov, Kamran Qasımov, Ağani Məmmədov, Adil Adilzadə, Rəsul Aydəmirov və Toğrul Salmanov təmsil edəcəklər.

Muay-tay (tayboks) yarışlarında Leyanna Mari Sayer, Musa Nuruzadə, Əli Əliyev, Məhər Əsədzadə, Rəvan Ağazadə və Məmməd Əmrəliyev mübarizə aparacaqlar.

# "Paris-2024": əsas yarış məqamlarına aydınlıq gətirilir

## Fransa karate ilə vidalaşıb breyk-dansı salamlayır



***İlk yarışının startına cəmi 3 il qalmış növbəti - 33-cü Yay Olimpiya Oyunlarının - "Paris-2024"ün təşkilat komitəsi yarış proqramı və bir sıra təsnifat mərhələləri ilə bağlı qərarlarını açıqlayıb və Beynəlxalq Olimpiya Komitəsinin dəstəyini alıb.***

İlk öncə onu demək lazımdır ki, açılışına 1050 gündən bir az artıq vaxt qalmış Oyunlarda (26 iyul-11 avqust 2024-cü il) gender bərabərliyi ilə bağlı növbəti optimallaşma baş verəcək.

Bu, idmançıların sayının "Tokio-2020" ilə müqayisədə azaldılaraq qadınların sayının qorunmasına doğru atılan addımlarla baş verəcək.

İştirakçı sayının azaldılması təsnifatlardan keçən seçimlərin daha da sərtləşdirilməsinə gətirib çıxaracaq.

Parisdə 10500-ə yaxın idmançı olacaq, bu isə bütün ölkələr üçün ümumi kvotanın 1000 idmançıya qədər azalması deməkdir. Növlərin sayı 32-yə salınıb və 329 dəst medal uğrunda mübarizə aparılacaq. Kişilər 156, qadınlar 151 dəst medalı bölüşdürəcəklər. Qarışıq və ya açıq yarışların sayı isə 18-dən 22-yə çıxarılacaq.

Tarixdə ilk dəfə olimpiya proqramına salınmış və 6 medal dəsti oynanılmış karate elə ilk cəhddən olimpiada ilə vidalaşdı. Ondan savayı, beysbol və softbol da təşkilatçıların ürəyincə deyil. İlk növbədə, iri arenaların tələb olunmasına görə. Olimpiada başa çatdıqdan sonra bu arenalar boş qalacaq və maliyyə itkisinə çevriləcək.

Amma əvəzində, Yeniyetmə Oyunlarının sınağından uğurla çıxmış breyk-dans olimpiya proqramına salınıb. Proqramda skeytbordinq, sörfinq və qayayadırmanma da saxlanılıb. Yeri gəlmişkən, sörfinq yarışlarının məkanı olimpiya oyunları tarixinə indidən xüsusi bəndlə düşüb: yarış Parisdən 15 min 700 km aralıda Fransa Polineziyasında keçiriləcək. Biarrisa, Lakano, Landa və Lya Torşa ilə mübarizədə Polineziyanın ən böyük adası Tahiti qalib gəlib və beləcə olimpiadalar tarixində yarış əsas şəhərdən ən uzaq məsafədə Teahupo'o çimərliyində təşkil ediləcək. Doğrudur, dərhal yada "Melburn-1956" zamanı verilmiş qərar da düşür. O vaxt atçılıq idmanı yarışları İsveç paytaxtı Stokholmda keçirilmişdi. Lakin bu, karantin məhdudiyyətləri ilə bağlı idi və mübarizə əsas yarışlardan 5 ay əvvəl təşkil edilmişdi.

Ümumən yarışlar Böyük Paris, Paris Mərkəz və Versal olmaqla 3 zonaya bölünüb.

Lakin Parisdən kənarda təkcə sörfinq yarışları keçirilməyəcək. Ənənə üzrə futbol da geniş areala yayılır. Parisdəki "Park de Prens"lə yanaşı, "Velodrom" (Marsel), "Park Olimpik" (Lion), "Alyans Rivyera" (Nitsa), "Matmü Atlantik" (Bordo), "Joffrua Gişar" (Sent-Etyenn) və "Bojuar" (Nant) oyunları qəbul edəcək.

İl de Frans regionunun Versör-Marndakı Milli Olimpiya Su İdmanı Stadionunda avarçəkmə, kanoe və kayak üzrə sprint və slalomlar keçiriləcək. Lillin "Pyer Morua" stadionu həndbol oyunlarını, Aralıq dənizinin Marsel sahilləri isə futbolla yanaşı, yelkən idmanını qəbul edəcək.

Növlər və gender məsələləri ilə bağlı onu da xüsusi qeyd edək ki, iki "bədii" növ - gimnastika və üzgüçülük (sinxron üzgüçülük) hələlik yalnız qadınların mübarizə aparacağı növlərdir.

Əlbəttə, bizi də ilk növbədə növlər və seçim mərhələləri maraqlandırır. Bu səbəbdən qarşıdakı müddətdə söhbət açacağımız bəzi məslələrə indidən diqqət edək. Yarış proqramları sıxışdırıldığından bəzi növlərdə seçim prosesi sərtləşdiriləcək. Eyni zamanda, "Paris-2024"ün təşkilatçıları yarışlara marağı məhz rəqabət yolu ilə artırılmasını istəyirlər. Bu səbəbdən, sadəcə, adı yarış sıyahısında olması üçün mübarizə meydanlarına çıxacaq idmançıların sayının azaldılması da hədəflərdən biridir. Lakin bununla belə BOK bir sıra növlərdə "əsas iştirakdır" devizi ilə idman növlərinin inkişafını dəstəkləmək üçün ənənəvi "vayld kard"lardan imtina etməyəcək.

Avarçəkmə slalomunda kanoe proqramı ilə iki medal dəsti əlavə olunacaq. Qayayadırmanmada sürət proqramında ayrıca yarış təşkil ediləcək.

Atletikada 50 km-ə idman yerişi ləğv olunaraq, əvəzində qarışıq estafet yarışı proqrama salınacaq. Boksda kişilər daha bir çəkini qadınların xeyrinə qurban verəcəklər.

Ağırlıqqaldırmanın başı üzərini duman alsa da, hələlik onun proqramdan çıxarılması müzakirə olunmur. Lakin yarış iştirakşılarının sayı daha 30 faiz azaldılacaq. Həm qadın, həm də kişilərdə iki çəki dərəcəsi ləğv olunub.

Yelkən idmanında isə medal dəstləri dəyişmədən, proqramlara əl gəzdiriləcək. Bu dəfə vindsörfinqin "RS:X" formatı yerini "İQFoil"ə verəcək.

Ümumən bütün növlər üzrə seçim proqramlarına bir daha baxılacaq. Baş verəcək yeniliklərlə zamanında oxucularımızı da tanış edəcəyik.

***BATI YAR***

# Aydın Süleymanlı qrossmeyster oldu

***16 yaşlı Azərbaycan şahmatçısı Aydın Süleymanlı Beynəlxalq Şahmat Federasiyası (FIDE) tərəfindən qrossmeyster kimi təsdiq edilib. İstedadlı şahmatçımız növbəti uğuru ilə Azərbaycanın 27-ci qrossmeysteri olub.***



Rusiyanın Soçi şəhərində başa çatan şahmat üzrə FİDE Dünya kubokundan sonra, qurumun növbəti hesabat iclasında ötən aylar ərzində fərqlənən şahmatçılar rəsmi olaraq öz yeni titullarına qovuşublar. Onların arasında yer alan Aydın Süleymanlı 2020-ci ildə "Aeroflot Open" turnirinin qalibi, yeniyetmələr arasında dünya və ikiqat Avropa çempionudur. Aprel ayının sonunda Monteneqronun Niksiç şəhərində keçirilən "Vladimir Bato Kontic" memorialında birinci olan Aydın, son qrossmeyster balını yığmışdı. FİDE-nin qaydalarına uyğun olaraq şahmatçı yeni qazandığı titula rəsmi olaraq yalnız ali şahmat qurumunun iclasından sonra yiyələnir.

Onu da qeyd edək ki, Aydından başqa Rauf Hacılı Beynəlxalq hakim, Röya Cəlilova isə FİDE hakimi (FA) titullarına yiyələniblər.

# XVI Yay Paralimpiya Oyunları bu gün start götürür





*(Əvvəli 1-ci səhifədə)*

Azərbaycanlı paralimpiyaçıların Şika şəhərinə səfəri və burada məşqlərə başlaması, mer Masaru Koicuminin qonaqları onlayn salamlaması Yaponiyanın nüfuzlu yerli mətbuatı, o cümlədən Kyodo agentliyi tərəfindən də geniş işıqlandırılıb.

Üzgüçülərimiz Tokiodakı Atletlər kəndinə avqustun 19-da yollanıblar.

Avqustun 13-də AMPK-də "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında iştirak edəcək milli komandamızın rəhbəri (şef de-mission) və onun müavinləri ilə görüş keçirilib. Komitənin prezidenti İlqar Rəhimov missiya rəhbəri və müavinlərə müvafiq tapşırıqlar verib. Paralimpiadada Azərbaycan milli komandasının missiya heyəti gənclərdən formalaşdırılıb. Şef-de mission Rauf Mürsəlov, onu müavinləri isə Elxan Rəhimov, Azər Tapdıqov və Leyli Yusifli təyin edilib. Şef-de mission Rauf Mürsəlov və müavini Azər Tapdıqov avqustun 14-də Tokioya yola düşüblər.

Avqustun 16-da Azərbaycanın Yaponiyadakı səfirliyinin əməkdaşları paralimpiyaçılarımızın İşikava prefekturasının Şika şəhərində "Tokio-2020" Paralimpiya Oyunlarına hazırlığı, onlar üçün yaradılmış şəraitlə tanış olublar. Şika şəhərinə səfər edən səfirliyin əməkdaşları şəhər meriyasının şöbə müdiri Oi Hiedaki və Azərbaycan Milli Paralimpiya Komitəsinin şöbə müdiri Rüfət Hacılı ilə görüşüblər. Onlara idmançılarımızın yerləşdiyi otel, yeməkxana, məşq zalları və hovuzlar barədə ətraflı məlumat verilib. Səfirliyin birinci katibi Rövşən Cəfərov idmançılarımız üçün yaradılan şəraitə görə Şika şəhərinin rəhbərliyinə minnətdarlığını çatdırıb.



Şika şəhərinin meri Masaru Koizumi və şəhər parlamentinin deputatları üzgüçülük üzrə Azərbaycanın Paralimpiya komandasının yaşadığı şərait və yarışlara hazırlıq prosesi ilə maraqlanıblar. Azərbaycanlı idmançılara həm şəhər rəhbərliyi, həm də yerli sakinlər tərəfindən xüsusi diqqət və qonaqpərvərlik göstərilib.

Tokioya paralimpiyaçılarımızn ən böyük heyəti avqustun 19-da yola düşüb. Bundan iki gün öncə milli komandanın və nümayəndə heyətinin üzvləri Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər. Sonra Şəhidlər xiyabanına gələn paralimpiyaçılarımız Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildiriblər.

Avqustun 19-da isə Azərbaycanın paralimpiya yığmasının və nümayəndə heyətinin Tokioya yola salınması mərasimi keçirilib. Azərbaycan Milli Paralimpiya komandasının 38 nəfərdən ibarət ən böyük heyəti avqustun 19-da Heydər Əliyev Beynəlxalq Hava Limanından Yaponiyaya yola salınıb. Həmin gün atletlər, cüdoçular və pauerliftinqçilər Tokioya yola düşüblər.

Yolasalma mərasimində AMPK prezidenti İlqar Rəhimov, komitənin rəsmiləri, Gənclər və İdman Nazirliyinin rəsmisi Fərid Mansurov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Qarabağ müharibəsi qaziləri, idmansevərlər və KİV nümayəndələri iştirak ediblər.

Paralimpiya çempionu Oloxan Musayev səfər öncəsi öz fikirlərini media ilə bölüşüb: "Tokio-2020"yə yüksək əhval-ruhiyyə ilə yola düşürük. Pandemiya dövrü olmasına baxmayaraq, biz paralimpiyaçılar yarışa yaxşı hazırlaşmışıq. Türkiyədə və Dubayda yüksək səviyyədə təlim-məşq toplantıları keçmişik. İnşallah, Vətənə medallarla dönəcəyik. Biz bu oyunlara ən güclü, həm də böyük heyətlə gedirik. İnanıram ki, üçrəngli bayrağımızı Tokioda yüksəklərə qaldıracağıq".

Gənclər və İdman Nazirliyinin şöbə müdiri, Olimpiya və ikiqat dünya çempionu Fərid Mansurov Paralimpiyaçılarımızın indiyədək bir sıra uğurlara imza atdıqlarını bildirib. O, qeyd edib ki, komandamız müstəqilliyimiz dövründə qatıldığı Paralimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil edib: "Komandamıza bu məsul yarışda uğurla çıxış etməyi, himnimizi səsləndirməyi və yüksək əyarlı medallarla vətənə dönməyi arzu edirəm".

AMPK-nın prezidenti İlqar Rəhimov da komandamızın Tokioda uğur qazanacağına əmin olduğunu vurğulayıb: "Çəkinmədən deyə bilərəm ki, əvvəlki Paralimpiya Oyunlarına gedən komandalarımızla müqayisədə Tokioya gedən yığmamız ən güclü komandadır. İnanıram ki, komandamız Tokioda ölkəmizi layiqincə təmsil edəcək və Azərbaycan idmanının nəyə qadir olduğunu göstərəcək. Uzaq Gündoğar ölkədə Azərbaycanın himni mütləq səslənəcək və bayrağı dalğalanacaq".

Avqustun 20-də Yaponiyanın Nanao şəhərinin meri Yoşitaka Çatani paralimpiyaçılarımızın İşikava prefekturasının bu şəhərində "Tokio-2020" Paralimpiya Oyunlarına hazırlığı, onlar üçün yaradılmış şəraitlə tanış olub. İdmançılarımızın məşq etdiyi 50 metr uzunluğunda hovuzun yerləşdiyi Nanao şəhərinin meri Azərbaycan Milli Paralimpiya Komitəsinin şöbə müdiri Rüfət Hacılı, məşqçilər və idmançılarla görüşüb. Merə idmançılarımızın məşq prosesi, hovuzda yaradılan şərait barədə ətraflı məlumat verilib. Bildirilib ki, bu şəhərdə yerləşən hovuzda idmançılarımızın məşqləri üçün lazımi şərait var və bu, onlara yarışlara daha yaxşı hazırlaşmaq imkanı yaradıb.

Həmin gün idmançılarımızın məşqini Nanao şəhərinin əlillərə dəstək mərkəzinin üzvləri də izləyiblər. onlar əllərində Azərbaycan bayraqlarını tutaraq "Kanbare!" ("Belə saxla!"), "Azərbaycan!" sözlərini qışqırıblar.

Şika və Nanao şəhərlərində məşqləri başa çatdıran paralimpiyaçılarımız avqustun 20-də Tokiodakı Atletlər kəndinə gəliblər.

Paralimpiya Oyunları ərəfəsində komandamız bir arzuedilməz halla üzləşib. Oyunlarda iştirak etmək üçün Yaponiya paytaxtına gələn cüdoçumuz, "Rio-2016"nın qızıl mükafatçısı Ramil Qasımov koronavirusa yoluxub. Tokiodakı Atletlər kəndində idmançımızdan götürülən COVID-19 testinin nəticəsi müsbət çıxıb. Azərbaycan komandasının tələbi ilə bir neçə saat sonra götürülən təkrar test nümunəsinin də nəticəsi müsbət çıxdığına görə cüdoçumuz yarışlardan kənarlaşdırılıb. O, Tokioda xüsusi karantin zonasına yerləşdirilib. Ramil Qasımov karantin müddəti başa çatdıqdan sonra Vətənə qayıdacaq.



Həmçinin Ramil Qasımovla yaxın təmasda olan cüdo komandasının digər 11 üzvünün PCR testlərinin nəticələri mənfi çıxsa da, onlar da yüngül karantin rejimində qalacaqlar. Cüdo komandasının digər üzvlərindən gündəlik test nümunələri götürüləcək. Yüngül karantin rejimi zonasına yerləşdirilmiş idmançılarımız məşqlərinə davam edərək, yarışlara qatılacaqlar. Lakin onların açılış mərasimində iştirak etmələrinə icazə verilməyəcək.

Qeyd edək ki, 11 cüdoçumuz arasında ikiqat Paralimpiya çempionu İlham Zəkiyev də yer alıb. Bu səbəbdən açılış mərasiminin bayraqdarı Pekində keçirilmiş Paralimpiya Oyunlarının qalibi Oloxan Musayev olacaq.

AMPK-dən bildirilib ki, Tokioda Atletlər kəndində yerləşən idmançılarımızın səhhətində heç bir problem yoxdur. Komandanın bütün üzvləri yarışlara tam hazırdır.

Avqustun 22-də Tokioya yollanan növbəti idmançılarımız güllə atıcıları olub. Son olaraq isə avqustun 26-da parataekvondoçular Yaponiyaya yollanacaqlar.

Dünən AMPK prezidenti İlqar Rəhimov Tokioda Atletlər kəndində idmançılarla görüşüb. Görüşdə komitə prezidenti İ.Rəhimov idmançılar üçün yaradılmış şəraitlə tanış olub. Komitə rəhbərliyi idmançılarımıza qarşıdan gələn yarışlarda uğurlar arzulayıb. Görüşdə komitənin baş katibi Kamal Məmmədov da iştirak edib.

Bəli, bu gün "Tokio-2020" XVI Yay Paralimpiya Oyunları başlanır. Azərbaycan paralimpiyaçıları isə avqustun 26-dan etibarən yarışlara qatılmağa başlayacaqlar. İlk olaraq mübarizəyə "Tokyo İnternational Forum"da pauerliftinqçi Pərvin Məmmədov (49 kq) qatılacaq.

Ertəsi gün "Olympic Stadium"da atletimiz Oloxan Musayev kürə itələmədə qüvvəsini sınayacaq. "Nippon Budokan"da isə cüdoçularımızdan Şahanə Hacıyeva (48 kq), Bəsti Səfərova (52 kq), Vüqar Şirinli (60 kq) və Namiq Abbaslı (66 kq) mübarizəyə başlayacaqlar. Üzgüçümüz Raman Saleh isə "Tokio Aquatics Centre"də 100 metrə məsafədə arxası üstə üzmə yarışında gücünü sınayacaq.

Avqustun 28-də atlet Həmid Heydəri nizə atma yarışında iştirak edəcək. Cüdoçularımızdan həmin gün Sevda Vəliyeva (57 kq), Xanım Hüseynova (63 kq) və Hüseyn Rəhimli (81 kq) yarışacaqlar.

Avqustun 29-da atletlərimizdən Elvin Astanov kürə itələmə, Elmir Cəbrayılov 100 metrə qaçış yarışında qüvvələrini sınayacaqlar.

*(Ardı 6-cı səhifədə)*

# XVI Yay Paralimpiya Oyunlarında Azərbaycanı təmsil edən idmançılar


**Oloxan Musayev**
atletika
*(kürə itələmə, disk atma)*


**Samir Nəbiyev**
atletika
*(kürə itələmə)*


**Elvin Astanov**
atletika
*(kürə itələmə)*


**Kamil Əliyev**
atletika
*(uzunluğa tullanma)*


**Orxan Aslanov**
atletika
*(uzunluğa tullanma)*


**Səid Nəcəfzadə**
atletika
*(uzunluğa tullanma)*


**Orxan Qasımov**
atletika
*(nizə atma)*


**Həmid Heydəri**
atletika
*(nizə atma)*


**Yelena Taranova**
güllə atıcılığı
*(10, 25, 50 m məsafəyə atış)*


**Kamran Zeynalov**
güllə atıcılığı
*(10, 50 m məsafəyə atış)*


**Lamiyə Vəliyeva**
atletika
*(qaçış, 100 m, 400 m)*


**Yuliya Yanovskaya**
atletika
*(qaçış, 100 m, 400 m*


**Yelena Çebanu**
atletika
*(qaçış, 100 m)*


**Elmir Cəbrayılov**
atletika
*(qaçış, 100 m, 400 m)*


**Raman Saleh**
üzgüçülük
*(50 m sərbəst, 100 m sərbəst, batterflyay, arxasıüstə)*


**Dana Şandıbina**
üzgüçülük
*(100 m, brass)*


**Vəli İsrafilov**
üzgüçülük
*(100 m, batterflyay, brass)*


**Elşən Hüseynov**
pauerliftinq
*(107 kq)*


**Pərvin Məmmədov**
pauerliftinq
*(49 kq)*


**Şamo Aslanov**
pauerliftinq
*(+107 kq)*


**Nurlan Babacanov**
pauerliftinq
*(97 kq)*


**Aynur Məmmədova**
parataekvondo
*(+58 kq)*


**Əbülfəz Abuzərli**
parataekvondo
*(75 kq)*


**Röyalə Fətəliyeva**
parataekvondo
*(49 kq)*


**İmadəddin Xəlilov**
parataekvondo
*(61 kq)*


**İlham Zəkiyev**
paracüdo
*(+100 kq)*


**Şəhanə Hacıyeva**
paracüdo
*(48 kq)*


**Bəsti Səfərova**
paracüdo
*(52 kq)*


**Sevda Vəliyeva**
paracüdo
*(57 kq)*


**Xanım Hüseynova**
paracüdo
*(63 kq)*


**Kənan Abdullaxanlı**
paracüdo
*(100 kq)*


**Namiq Abaslı**
paracüdo
*(66 kq)*


**Hüseyn Rəhimli**
paracüdo
*(81 kq)*


**Dürsədəf Kərimova**
paracüdo
*(+70 kq)*


**Vüqar Şirinli**
paracüdo
*(60 kq)*

# XVI Yay Paralimpiya Oyunları bu gün start götürür



(Əvvəli 4-cü səhifədə)

Cüdoçulardan Dürsədəf Kərimova (+70 kq), Kənan Abdullaxanlı (100 kq) və İlham Zəkiyev (+100 kq) tatamiyə çıxacaqlar. Pauerliftinq yarışına Nurlan Babacanov, üzgüçülük mübarizəsinə isə 50 metr məsafədə Raman Saleh qoşulacaqlar.

Avqustun 30-da atletlərdən Səid Nəcəfzadə və Kamil Əliyev uzunluğa tullanma, Oloxan Musayev disk atma yarışlarına qatılacaqlar. Pauerliftinqçilərdən Elşən Hüseynov (107 kq) və Şamo Aslanov (+107 kq) mübarizə aparacaqlar.

Ayın son günündə atletika yarışlarında Yelena Çebanu, Yuliya Yanovskaya və Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış yarışlarında iştirak edəcəklər. Üzgüçümüz Raman Saleh 100 metr məsafəni sərbəst üsulla qət edəcək. Həmin gün güllə atıcılarımız mübarizəyə qoşulacaqlar. "Asaka Shooting Range"də 10 metr məsafədən Yelena Taranova və Kamran Zeynalov atəş açacaqlar.

Sentyabrın ilk günündə atletika yarışlarında Elmir Cəbrayılov 400 metr məsafə üzrə qaçış yarışında qüvvəsini sınayacaq. Üzgüçülərimizdən Vəli İsrafilov və Dana Şandıbina öz kateqoriyalarında 100 metr məsafəni brass üsulu ilə qət edəcəklər.

Sentyabrın 2-də atletlərdən Elmir Cəbrayılov, Yuliya Yanovskaya və Lamiyə Vəliyeva 400 metr məsafəyə qaçış, Orxan Qasımov isə nizə atma yarışlarında iştirak edəcəklər. Güllə atıcımız Yelena Taranova 25 metr məsafədən atəş açacaq. Taekvondoçularımız həmin gün "Makuhari Messe"də mübarizəyə başlayacaqlar. İlk olaraq Röyalə Fətəliyeva (49 kq) və İmaməddin Xəlilov (61 kq) qüvvələrini sınayacaqlar.

Sentyabrın 3-də atletlərdən Samir Nəbiyev kürə itələmə yarışında iştirak edəcək. Üzgüçülərimizdən Raman Saleh və Vəli İsrafilov 100 metr məsafəni batterflyay üsulu ilə üzəcəklər. Taekvondoçumuz Əbülfəz Abuzərli (75 kq) də həmin gün yarışacaq.

Sentyabrın 4-də atletika yarışlarında Yuliya Yanovskaya və Lamiyə Vəliyeva (400 metr), eləcə də Orxan Aslanov (uzunluğa tullanma) iştirak edəcəklər. Güllə atıcılarımızdan Yelena Taranova və Kamran Zeynalov 50 metr məsafədən atəş açacaqlar. Azərbaycan paralimpiyaçılarından son olaraq yarışa taekvondoçu Aynur Məmmədova (+58 kq) qatılacaq.

Tokioya qələbə əzmi, yüksək əhval-ruhiyyə, iddia ilə yollanan paralimpiyaçılarımızdan uğurlu çıxışlar, çoxsaylı medallar, bütövlükdə komandamızdan rekord nəticə gözləyirik.

*Vüqar İNQİLABOĞLU*

# Avrokuboklar: Sapı iynənin gözündən keçirmək olsa

***Azərbaycan klublarının builki Avrokubok macəraları hələ də iki klubla davam edir. Ümidlər azalıb və iynənin ucu boyda qalıb. Tükdən asılı olan hər iki təmsilçimiz sapı iynənin gözündən keçirə bilsə, mövsüm üçün ilk böyük vəzifəni yerinə yetirmiş olacaq.***

Doğrusu, Avrokubokların yeni qaydaları və Konfrans liqası "Azərbaycan futbolunun dadına yetişdi" deyə bilərik. Bu yenilikdən itirən bəlkə də "Qarabağ"dır. O mənada ki, komanda növbəti çempionluğunu qeyd etmiş olsaydı, indi rahatlıqla qruplardan birində yer alardı. Bu təxmin olsa belə, əsaslı iddiadır. Çünki komandanın hazırkı mövsümdəki səviyyəsi belə "Neftçi"dən fərqli olaraq, ən azı iki qrupdan birinə yolunu açmışdı. Konkret desək, "Neftçi"nin bunaqədərki bütün oyunlarında qələbələr üçün xarakteri çatmadı. Futbolda, taktiki planlar, oyun elementləri və s. ilə bağlı çox müzakirə aparmaq, iş görmək olar. Deməli, öz oyun planını, heyətini erkən formalaşdırmaqla yanaşı, futbolçuda qələbə ehtirasını cilovlayan xarakter formalaşdırmaq və bununla meydanda uğurlara yol açıb iştahı da diş altına salmaq olar.

Qrup ərəfəsi son mərhələdə həm "Qarabağ", həm də "Neftçi" son həddə müşkül rəqiblərlə üzləşiblər. "Qarabağ"ın tarixi şansı, bunaqədərki imici, formalaşdırdığı ad, oyun təcrübəsi, əvvəlki illərdə güclülərə meydan oxuması ümidlərin əsassız olmadığını göstərir. Əlbəttə, ənənəvi şotlandsayağı, yaxud Britaniya futboluna yaxın tərzi ilə "Aberdin" çox müşkül rəqibdir. Komandanın bir-iki uğurlu cinah keçidinin müvəffəqiyyətlə və ya təhlükəli tamamlanması yetər ki, "Qarabağ" çətinliklərin dadını duymağa başlasın. Lakin elə bu tərz Ağdam klubuna sapı iynənin dar gözündən sərrast dəqiqliklə keçirməyə də imkan verə bilər. Komandanın yaradıcı, xüsusən meydanın mərkəzindən idarə olunan şaxəli oyun göstərərək, fərdi ustalığı işə salması, öndə Ramil Şeydayevin manevrlərinin təhlükəsi yetər ki, rəqib öz evində belə ayaq açıb yeriyə bilməsin.

Bakıdakı görüşdən çox dərs götürmək mümkün deyil. Hər oyunda meydanın ot örtüyünün yaradıcı və sürətli manevrli oyuna imkan verməyi müşahidə olunur. Əlbəttə, bunun müsbət cəhəti "Aberdin" kimi rəqibin qarşısının alınmasına gətirib çıxarmasıdır. Lakin meydan "Qarabağ"a da öz planlarını tam yerinə yetirməyə imkan vermir. Belə vəziyyətdə, rəqib bəlkə də minimal itki ilə evinə yollanmağı şans sayırsa, "Qarabağ"ın ikinci topu qapıdan keçirə bilməməsi qarşıdakı intriqanı bir az da artırır. Həm də "Qarabağ"ın da arxayınlaşmağa əsası olmayacaq.

"Neftçi"yə gəldikdə, HİK-lə oyundan söz açmağa dəyməz. Halbuki rəqib heç də müşküllərdən deyildi. Buraxılan 3 qol "Neftçi"nin durumunu əyani nümayiş etdirir. Namiq Ələsgərovun olmaması komandanın problemlərini birdən bu qədər qəfil qabardırsa, meydana heç çıxmağa dəyməz. Ölkəni Çempionlar liqasında təmsil edən bir klubun bu duruma düşməsi, onun klub kimi nə qədər zəif olmasının göstəricisidir. Lakin maraqlı olan, arxa xətdə qalaqlanmış problemlərin çözülməməsi ilə yanaşı, oyun quruculuğunda görünən imkanların dəyərləndirilməməsidir. Hələ bir komandada lazımı minimal oyun xarakteri formalaşmırsa, deməli, düz istiqamətdə iş aparılmır.

Əlbəttə, İsrail klubu ilə oyunun ikinci yarısında qəfil dəyişən mənzərə ilə 3 topun vurulması, iki top fərqilə üstünlüyün əldə olunmasını xüsusi qabartmaq olar. Lakin "bunda rəqibin rolu olmadımı" sualına cavab axtarmağa lüzum yoxdur - hər şey göz önündədir. Elə matçın sonluğu, azlıqda qalan ev sahiblərinin qapısından keçirilən iki top daha bir cavabdır.

Söz yox ki, elə ilk matç "Neftçi"nin də şanssız olmadığını göstərir. Rəqib qapısına 3 dəfə yol tapılmasında klubun da səyləri az rol oynamadı. Rəqibdə yaranan çaşqınlıq nə qədər uzun sürsə də, bunu qol reallığına çevirmək imkanlardan xəbər verir. Elə bu səbəbdən "Neftçi"də imkanlar ola-ola, xarakter natamamlığını daha çox qabardırıq. İsraildə çətin matçı asan oyuna çevirmək mümkündür. Bunun yollarını Bakıda da əyani görmək olardı. Rəqib ardıcıl dayanıqlı rəqabətə hələ tam hazır deyil. "Neftçi"nin çoxplanlı cinah və mərkəzdən həmlələri çox şeyi həll edə bilər. Bir qədər sakit, lakin partlayışlı cavablar effektli vasitələrdən biri kimi diqqət çəkə bilər. Ən vacibi, "Neftçi" rəqibi erkən susdurmaq üçün şansa malikdir. Sual doğuran, müdafiənin ipə-sapa düzülməsidir. Burada baş məşqçi bir qədər düşünməlidir.

*BATI YAR*



**Avropa liqası. 3-cü təsifat mərhələsi.**
**Cavab qarşılaşması.**

***HİK (Finlandiya) - "Neftçi" (Azərbaycan) 3:0 (0:0)***

**12 avqust.** Helsinki. Futbol stdionu.

**İLK OYUN - 2:2**

**Hakimlər:** Dəniz Aytəkin - Xristian Dits, Markus Zinn - Martin Petersen (Almaniya).

**Qol:** Riku Riski, 46, Roope Riski, 60-pen., 89. Sarı vərəqə: Riku Riski, 79, O'Şönessi, 84//Mboc, 60, Arramiş, 66, Nəcəfov, 83.

**HİK:** Yakob Tannander, Miro Tenho, Deniel O'Şönessi (kap.), Valtteri Moren, Luis Karlos Murilyo, Lukas Linqman (Matti Peltola, 89), Jair, Yanni Saksela (Kevin Kuassivi-Benissan, 76), Devid Braun (Riku Riski, 46), Filip Valençiç (Tim Sparv, 82), Roope Riski. Baş məşqçi: Toni Koskela.

**"Neftçi":** Aqil Məmmədov, Voislav Stankoviç, Mamadu Mboc (Mərd Çəlik, 72), Romen Bask, Arramiş, Yusuf Laval, Mamadu Kane, Emin Mahmudov (kap.), Sabir Buqren, Sezar Meza Kolli (Xəyal Nəcəfov, 72), Mirabdulla Abbasov (Fəhmin Muradbəyli, 63). **Baş məşqçi:** Samir Abasov.

**Konfrans liqası. 3-cü təsifat mərhələsi.**
**Cavab qarşılaşması.**

***"Qarabağ" (Azərbaycan) - AEL (Kipr) 1:0 (0:0)***

**İLK OYUN - 1:1.**

**12 avqust.** Bakı. Tofiq Bəhramov adına Respublika stadionu.

**Hakimlər:** Kristo Tohver - Silver Koiv, Sten Klaasen - Karl Koppel (Estoniya).

**Qol:** Kadı, 87.

**Sarı vərəqə:** Andrade, 49, Ozobiç, 54, T.Bayramov, 72, Q.Qarayev, 73//Santuş, 12, Ryera, 37, Euller, 81.

**"Qarabağ":** Şahruddin Məhəmmədəliyev, Maksim Medvedev (kap.), Kevin Medina, Abbas Hüseynov, Toral Bayramov, Qara Qarayev (İsmayıl İbrahimli, 90+6), Patrik Andrade, Filip Ozobiç (Kadı, 62), Xayme Romero (Marko Veşoviç, 90), Abdulla Zubir, Ramil Şeydayev. **Baş məşqçi:** Qurban Qurbanov.

**AEL:** Vozinya (kap.), Kire Ristevski, Andre Teyşeyra, Robert Mazan, Brunu Santuş, Slobodan Medoyeviç (Andriya Maydevats, 89), Sito Ryera (Franko Mazurek, 81), Davor Zdravkovski, Davor Zdravkovski, Maneul Torres, Euller (Brayan Pele, 81), Stefan Şçepoviç (Matko Babiç, 70). **Baş məşqçi:** Duşan Kerkez.

**Pley-off mərhələsi. İlk oyunlar**

***"Qarabağ" (Azərbaycan) - "Aberdin" (Şotlandiya) 1:0 (1:0)***

**19 avqust**. Bakı. Tofiq Bahramov adına Respublika Stadionu.

**Hakimlər:** Rade Obrenoviç - Yure Praprotnik, Aleksandar Kasapoviç - Asmir Saqrkoviç (Sloveniya).

**Qol:** Romero, 30.

**Sarı vərəqə:** Andrade, 63, Medvedev, 90+5, Ozobiç, 90+6//Makkrori, 42, Braun, 55, S.Qlass, 65.

**"Qarabağ":** Şahruddin Məhəmmədəliyev, Maksim Medvedev (kap.), Kevin Medina, Abbas Hüseynov, Toral Bayramov, Qara Qarayev (İsmayıl İbrahimli, 87), Patrik Andrade, Kadı (Filip Ozobiç, 78), Xayme Romero (Marko Veşoviç, 87), Abdulla Zubir, Ramil Şeydayev. **Baş məşqçi:** Qurban Qurbanov.

**"Aberdin":** Co Lyuis, Deklan Qallager, Ross Makkrori, Endrü Konsidayn (Conni Heyz, 14), Skott Braun (kap.), Lyuis Fergüson, Kelvin Remsi, Cək Makenzi, Cey Emmanuel-Tomas (Konnor Maklennan, 46), Kristian Ramires, Funso Oco. **Baş məşqçi:** Stefen Qlass.

***"Neftçi" (Azərbaycan) - "Makkabi" (Haifa, İsrail) 3:3 (0:1)***

**19 avqust.** Bakı. "8-ci km stadionu"

**Hakimlər:** Delajo Villi - Mehdi Rəhmuni, Finjan Ervan Şristof - Tomas Leonar (Fransa).

**Qol:** Laval, 50, 66, E.Mahmudov, 72//Atzili, 9, Çerı, 78, 90+6.

**Sarı vərəqə:** Mboc, 28, Zülfüqarlı, 43, 77, Laval, 52, Mahmudov, 57//Məhəmməd, 7, Əbu Fani, 49, Streyn, 90+8.

**Qırmızı vərəqə:** Zülfüqarlı, 77

**"Neftçi":** Aqil Məmmədov, Mamadu Mboc, Mərd Çəlik, Voislav Stankoviç, İsmayıl Zülfüqarlı, Yusuf Laval, Mamadu Kane, Romen Bask, Emin Mahmudov (kap.; Uqu Baştu, 90+7), Sabir Buqren (Fəhmin Muradbəyli, 81), Arramiş (Sezar Meza Kolli, 75). **Baş məşqçi:** Samir Abasov.

**"Makkabi":** Coşua Kohen, Ori Dahan, Boqdan Planiç, Yosef Raz Meyr (Rayan Streyn, 74), Sun Menaxem, Xose Rodriges, Əli Məhəmməd (Dalev Haziza, 65), Məhəmməd Əbu Fani (Yuval Aşkenazi, 88), Tyaronn Çerı (kap.), Ömər Atzili, Din David (Ben Sahar, 74). **Baş məşqçi:** Barak Baxar.

**Cavab qarşılaşmaları**

***"Aberdin" (Şotlandiya) - "Qarabağ" (Azərbaycan)***

**26 avqust.** Aberdin. "Pittodri" stadionu.

**Hakimlər:** Harald Lexner - Andreas Haydenrayx, Maksimilian Kolbitş - Yulian Vaynberger (Avstriya).

***"Makkabi" (Haifa, İsrail) - "Neftçi" (Azərbaycan)***

**26 avqust.** Hayfa. "Semmi Ofer" stadionu.

**Hakimlər:** Aleksandar Stavrev - Deyan Kostadinov, Qoçe Petreski - Deyan Yakimovksi (Şimali Makedoniya).

## Turdan tura

# Daha bir qarışıq-natamam mövsümə doğru



***Milli klub futbolu mövsümünün Premyer liqada ilk iki turu artıq geridədir. Elə bu matçlardan çempionat yenə natamamlıqlar kompleksinə doğru ilk addımlar yarışına çevrilib. ”Sumqayıt” bu dəfə də ildırımsürətli başlanğıcla əvvəldən özünə rahat yol cızmaq istəyir.***

Görünür, Avrokubok komandanın xeyrinə işləyib və ən aazı milli çempionat üçün nəticələr doğru çıxarılıb. Hərçənd komandada hələlik dəyişən çox şey yoxdur. Məsələn, heyətin gücləndirilməsi üçün yenə heç bir addım atılmadı.

Ötənilki kimi, ”Sabah” və ”Keşlə”nin uğursuzluq yolu ənənəvi məşqçi dəyişikliklərinin gündəmə elə ilk turlardan gətirib. Hərçənd ”Sabah”la bağlı vəziyyət az-çox aydındır və klub rəhbərliyinin məntiqli qərarlarını da görmüşük. Komanda yeni mövsümə, faktiki olaraq, yeni heyətlə gedir. Lakin ikinci görüşə də komanda tam heyətlə çıxa bilmədi. Bu dəfə həm koronavirus, həm sifariş edə bilmədikləri futbolçu, həm ilk turdakı qırmızı vərəqə, həm zədə, bir sözlə, mümkün macəraların hamısı klubun yolunu kəsdi. Bir sözlə, hələ konkret nəsə deməyin zamanı olmasa da, qarşıdan gələn fasilə dövründən səmərəli istifadə olunmalıdır. Əks təqdirdə, təcrübəsinə bələd olduğumuz ”Keşlə” sükançı dəyişikliyinə ilk namizədə çevrilib.

Ümumən mövsüm yenə də normal bir klub oyunu görməyəcəyimizə işarə ilə başlanıb. Azçox ”Qarabağ” sanbalına sığına bilər və bu mövsümün şəriksiz lideri ola bilər. Üstəlik, yeni heyət quruculuğuna komanda taktiki hiylələrlə gedərək, məntiqi ardıcıllığa üstünlük verir. Hərçənd ”Zirə” ilə ilk turdakı matçda büdrəməsinin mümkünlüyünü də əyani göstərdi.

”Neftçi” isə qarışıq-natamamlığın rəmzi olmağa hazırdır. İlk turda ”Qəbələ” ilə görüşdə komanda deyil, dərədən-təpədən yığılmış toy ansamblını xatırladan ”ağ-qaralar”a qonaqlar rəhmlə yanaşdılar. Haradasa mövsümün başlanğıcı olması, haradasa səfərdə oynaması, haradasa titullu rəqibə qarşı dayanması, haradasa özünə güvənməməsi ”Qəbələ”ni qələbədən məhrum etdi. Heç bir oyun elementi olmadan sadaladıqlarım təsadüfi deyil. Bəli, məhz ikinci dərəcəli faktorlar səbəbilə ”Qəbələ” daha 2 xaldan özünü məhrum etdi.

Düşünmək olar ki, ”Neftçi” ikinci turda ənənəvi çətin səfərdən qələbə qazanmaqla özünə haqq qazandırıb və doğru yola düşüb. Lakin əvvəlcə hakim, daha sonra rəqibin özü onun qələbəsinin təminatçısı oldu: hakim ələ dəyən topu penalti kimi qiymətləndirmədi; ilk qolda qapıçı kobud səhvə yol verdi; ikincidə isə müdafiə baş verənlərə ”slou-moşn” üslubunda pərakəndə hərc-mərci təpik, ayaq, sinə atmaqla cavab verməyə çalışaraq topu qapıdan çıxarmaq üçün nə lazımdırsa etdi. Doğrudur, oyunlarda əllə oyun vəziyyətinin qiymətləndirilməsi ilə bağlı son tövsiyələrə görə çox şərhlər vermək olar. Lakin belə hallara ”sərbəst” qiyməti vermək sabah-birigün istənilən yozuma yol açmaq deməkdir.

Hər necə oldusa, Avrokuboklarda bir yarışdan digər yarışa yuvarlandırılaraq atılan komanda milli mövsümdə də iki turdur ki, sanbalına güvənə bilmir. Oyunçu potensialı ilə ən aşağılarda, oyun potensialına görə ortalarda, sadəcə, təcrübə və iddiasına görə yuxarılardadır. İstənilən halda bu da çempion titulunu özünə qaytarmış bir komandanın həsrətə son qoyduqdan sonrakı vəziyyətinə haqq qazandırmır. Hətta 0:3 hesabı ilə ”Qarabağ”a məğlub olan ”Səbail” belə öz oyununda daha məntiqli görünürdü. Yeri gəlmişkən, ”Səbail” matçda kombinasiyalı oyun baxımından normal təsir bağışlayaraq, ilk turda qələbənin təsadüf olmadığını əyani nümayiş etdirdi. Komandanın hazırlıq, praktiki fəaliyyət problemi daha çox sezilir.

İlk tur haqqında danışarkən, VAR sistemi ilə bağlı məqamları bir daha dilə gətirməyə lüzum yaranıb. Bu sistem olsaydı, bəlkə də artıq bir neçə oyunun taleyi barədə tam fərqli qərarlar verilərdi. Elə bu səbəbdən qış fasiləsindən sonra VAR sisteminin ədalətli tətbiqinə ümidlə hakimlərin də səhvsizliyinə, ən azı, qarşılaşmaların taleyinə təsir göstərməyəcəyini arzulayaq.

Yekun olaraq, mövsümün ilk iki turu daha çox problemlərin anonsçusu oldu, daha bir qarışıq, həm də natamamlığı bol olan, bəzən isə məntiqi izahı belə olmayacaq mövsümə şahidlik edəcəyimizə isə işarələr verdi. İndi qarşıda milli komandanın oyunu ilə əlaqədar ilk böyük fasilə başlanır. Belə demək mümkündürsə, elitar klubar qızınma hərəkətlərindən sonra səhvləri aradan qaldırmaq üçün ilk fürsəti əldə ediblər.

Gözləyək, görək nə baş verir.

**BATI YAR**

### Futbol. Azərbaycan çempionatı. Premyer Liqa

**1-ci tur**

__14 avqust (şənbə)__

**“Sabah” (Bakı) - “Səbail” (Bakı) 0:1** (Yurgen Qoxa, 30).

**“Keşlə” (Bakı) - “Sumqayıt” 0:2** (Rəhim Sadıqov, 83, 89).

__15 avqust (bazar)__

**“Zirə” (Bakı) - “Qarabağ” (Ağdam) 1:1** (Təmkin Xəlilzadə, 50-pen.//İsmayıl İbrahimli, 18).

**“Neftçi” (Bakı) - “Qəbələ” 2:2** (Fəhmin Muradbəyli, 55, Voislav Stankoviç, 76//İsnik Alimi, 67-pen., Ülvi İsgəndərov, 84).

**2-ci tur**

__21 avqust (şənbə)__

**“Qəbələ” - “Keşlə” 2:1** (Yaovi Akakpo, 11, Rafael Utziq, 30//Anatole Abanq, 77).

**“Sumqayıt” - “Sabah” 2:0** (Əli Qurbani, 32, Tellur Mütəllimov, 78).

__22 avqust (bazar)__

**“Zirə” - “Neftçi” 1:2** (Davit Volkov, 90+4// Fəhmin Muradbəyli, 72, Emin Mahmudov, 90+3).

**“Qarabağ” - “Səbail” 3:0** (Musa Qurbanlı, 30, 45+2, Filip Ozobiç, 75).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. “Sumqayıt” | 2 | 2 | 0 | 0 | 4-0 | 6 |
| 2. “Qarabağ” | 2 | 1 | 1 | 0 | 4-1 | 4 |
| 3. “Qəbələ” | 2 | 1 | 1 | 0 | 4-3 | 4 |
| 4. “Neftçi” | 2 | 1 | 1 | 0 | 4-3 | 4 |
| 5. “Səbail” | 2 | 1 | 0 | 1 | 1-3 | 3 |
| 6. “Zirə” | 2 | 0 | 1 | 1 | 2-3 | 1 |
| 7. “Keşlə” | 2 | 0 | 0 | 2 | 1-4 | 0 |
| 8. ”Sabah” | 2 | 0 | 0 | 2 | 0-3 | 0 |

**Bombardir: 2** - Rəhim Sadıqov (”Sumqayıt”), Fəhmin Muradbəyli (”Neftçi”), Musa Qurbanlı (”Qarabağ”).

# A.A.Banişevskinin 75 illik yubileyinə həsr olunmuş turnirə yekun vurulub

***Azərbaycan Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və AFFA-nın dəstəyi, Bakı Kəndləri Futbol Federasiyasının (BKFF) təşkilatçılığı ilə A.A.Banişevskinin 75 illik yubileyi və BKFF-nın 15 illiyi münasibətilə turnir keçirilib.***

Şağan Olimpiya İdman Kompleksində əvvəlcə 3-cü yer uğrunda görüşdə ”Dirçəliş” ”İ.Cavadov” komandasına qalib gəlib.

Final görüşündən öncə, turnir iştirakçıları A.Banişevskinin və T.Bəhramovun məzarlarını ziyarət ediblər.

Sumqayıtda, ”Kapitalbank” Arenanın ehtiyat meydançasında ”Curat” və ”Çinar” komandaları arasında keçirilən final oyunu



8:3 hesabı ilə başa çatıb.

Sonda qalib komandalar medal, diplom və hədiyyələrlə mükafatlandırılıblar.

Turnirdə veteran futbolçu R.Poladov (42 yaş), ən çox top vuran futbolçu Ş.Əliyev (14 top) seçiliblər.

# Cüdoçularımızdan böyük uğur



***Latviyanın paytaxtı Riqa şəhərində cüdo üzrə kadetlər arasında Avropa birinciliyi keçirilib.***

Mötəbər yarış Azərbaycan milli komandası üçün uğurlu olub. Cüdoçularımız Avropa birinciliyində 3 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. Belə ki, Xəyal Həsənov (50 kq), İslam Rəhimov və Aydan Vəliyeva bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub. Aydın Rzayev (60 kq) yalnız finalda uduzaraq gümüş medala layiq görülüb. Daha iki cüdoçumuz, Babarəhim Mirzəyev (50 kq) və Zahir Ağazadə (60 kq) bürünc medal qazanıb. Qeyd edək ki, cüdoçumuz İslam Rəhimov finalda Rusiyanı təmsil edən erməni əsilli idmançı Samvel Mxitaryanı məğlub edərək Riqada üçrəngli bayrağımızı dalğalandırıb, dövlət himnimizi səsləndirib.

Beləliklə, Azərbaycan millisi ümumi komanda hesabında Rusiya yığmasından sonra ikinci yeri tutub. Cüdoçularımız İsrail, Fransa, Almaniya, Ukrayna, Gürcüstan, Belçika, İsveçrə və İtaliya kimi böyük cüdo ənənələri olan ölkələri qabaqlayıblar.

Nüfuzlu yarışda qitənin 37 ölkəsindən olan idmançılar mübarizə aparıblar. Milli komandamız Avropa birinciliyində 14 yeniyetmə cüdoçu (10 oğlan, 4 qız) ilə təmsil olunub.

# Ya qalib, ya da ən yaxşı ikinci olmaq lazımdır

***Latviyanın Salaspils şəhərində futzal klublarının Avropa Çempionlar liqasının ilkin mərhələsinin ”D” qrupunun oyunları çərçivəsində ”Araz” ilk iki görüşünü keçirib.***

Komanda Cəbəllütariq ”Europa”sına 9:2 hesabı ilə qalib gəlib (qollar - Dias Qalyeqo, 4:13-öz qap, Rodriges 5:07, 29:57, 39:11, Şücayi, 8:08, Bağırov, 10:52, Pereyra Qonsalveş duş Santuş, 20:07, 38:58, Atayev, 27:13). İlk turda Finlandiya ”Kampuksen Dinamo”su yerli ”Raba”nın qapısından 5 cavabsız top keçirib.

İkinci turda iki favorit qismində olan kollektivin mübarizəsində ”Araz” hesabda irəli çıxıb daha əmin görünsə belə, yekunda hesabı bərabərlişdirmək üçün kifayət qədər səy göstərməli olub - 4:4 (qollar - Bağırov, 6:21, Rodriges, 7:22, Pereyra Qonsalveş duş Santuş, 15:49, Şücayi, 33:00). Autsayderlikdə qalıb yalnız qrup qalibini bəlli edən detonator rolunda çıxış edəcək iki autsayderin matçında ”Raba” ”Europa”ya 8:3 hesabı ilə qalib gəlib.

Bu gün keçiriləcək son turda hər iki liderin qalib gələcəyi şübhə doğurmur və bu səbəbdən qalibi topların fərqinin üzə çıxaracağı daha çox ehtimal olunur. Qeyd edək ki, qrup qalibi olmaq növbəti mərhələyə zəmanət yaradır. İlkin mərhələdə 8 qrupun qalibləri və ən yaxşı nəticəyə nail olan ikinci yer sahibi əsas raunda vəsiqə əldə edəcək.

Ümumiyyətlə, İspaniya, Portuqaliya, Rusiya və Qazaxıstanın hər birinin iki komanda ilə təmsil olunacağı yarışda 51 assosiasiyadan 55 klub iştirak edir.

# İDMAN

№ 17 (7112) 24 avqust 2021


## Respublika Olimpiya İdman Liseyi 2021-2022-ci tədris ili üçün şagird qəbulu elan edir

Respublika Olimpiya İdman Liseyi xüsusi qabiliyyəti olan şagirdləri aşağıda qeyd olunan idman bölmələri üzrə V sinfə qəbul edir:

**1. Sərbəst güləş**
**2. Yunan-Roma güləşi**
**3. Cüdo**
**4. Futbol**
**5. Boks**
**6. İdman gimnastikası**

Liseyə qəbul edilən şagirdlər dövlət hesabına yeməklə, respublikanın rayonlarından qəbul edilənlər isə yataqxana ilə də təmin olunurlar. Liseyin Azərbaycan və rus bölmələri var.

Liseyə daxil olmaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Direktorun adına ərizə;*
*2. Valideynin şəxsiyyət vəsiqəsinin əsli və surəti;*
*3. Şagirdin şəxsiyyət vəsiqəsinin (doğum haqqında şəhadətnamənin) əsli və surəti;*
*4. Sağlamlıq haqqında arayış - forma 086;*
*5. Oxuduğu məktəbdən arayış;*
*6. Yaşayış yerindən arayış;*
*7. 3x4 sm ölçüdə 2 ədəd fotoşəkil;*
*8. Rayon gənclər və idman idarəsinin və ya digər idman təşkilatının göndəriş məktubu.*

Ərizələr sentyabr ayının 1-dək qəbul edilir.
Dərslər sentyabrın 15-dən başlanır.

**LİSEYİN ÜNVANI:** Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Fətəliyev küçəsi, 68. (E.Xəlilov,37)

**TELEFON:** 429-75-49

**QEYD:** Liseyə qəbul üçün aşağıdakı linkə daxil olmaqla, liseyə müraciət anketini doldurmaq lazımdır: www.olimpiyaidmanliseyi.tk

## Karateçilərimizdən 3 qızıl, 1 gümüş və 3 bürünc medal



***Avqustun 20-22-də Finlandiyanın Tampere şəhərində 14-15 yaşlı yeniyetmələrin və 16-17 yaşlı gənclərin 48-ci Avropa çempionatı, 21 yaşadək gənclərin isə 13-cü qitə çempionatı keçirilib.***

Milli komandamız Avropa çempionatına 24 karateçi ilə qatılıb. Belə ki, 14-15 yaşlı yeniyetmələrdə 6 idmançı, 16-17 yaşlı gənclərdə 8, 21 yaşadək gənclər arasında isə 10 karateçimiz mübarizə aparıb. Onlardan 19-u kumite, 5-i isə kata yarışlarında iştirak edib.

Yarışın birinci günündə 14-15 yaşlı yeniyetmələrin kumite yarışında 63 kiloqram çəki dərəcəsində çıxış edən karateçimiz Rəşid Süleymanov Devid Frederiksonu (Danimarka), Fran Hostu (Gürcüstan) məğlub edib, Zuniga Mateo (Almaniya) ilə görüşdə hesab bərabər olub. Karateçimiz yarımfinalda Kiril Miçkonu (Rusiya) üstələyərək finala yüksəlib. Həlledici mərhələdə karateçimiz böyük əzmkarlıq göstərərək rəqibi Artem Şarubanı (Belarus) məğlub edib.

Həmin gün daha bir təmsilçimiz qızıl medala sahib olub. Eyni yaş kateqoriyasında 70 kiloqramdan yuxarı çəki dərəcəsində Nihad Kərimzadə Jakob Zumer (Slovakiya) 6:1, Antoni Stepnievskiyə (Polşa) ilə qalib gələrək yarımfinalda vəsiqə qazanıb. Yarımfinalda italiyalı Fernando Marinonu üstələyən karateçimiz finala adlayıb. Finalda rəqibinə - belaruslu Andrey Basarova qalib gələn təmsilçimiz çempionluğu bayram edib.

Digər təmsilçimiz, 14-15 yaşlı yeniyetmələr arasında 47 kiloqram çəki dərəcəsində mübarizə aparan Aysu Əliyeva 3-cü yer uğrunda görüşdə Ana Lujiçə (Gürcüstan) qalib gələrək bürünc medal qazanıb.

Turnirin ikinci günündə 16-17 yaşlı gənclər arasında kumite yarışlarında Rumil Cəfərli (76 kq) böyük əzmkarlıq göstərərək adını finala yazdırıb. İdmançımız çempionatda litvalı Titas Qrinasa, isveçrəli Qabriel Di Gioinaya və Ermənistan idmançısı Robert Hovannisyana qalib gələrək yarımfinala vəsiqə qazanıb. Yarımfinalda Belarus karateçisi Lukas Deprinsi minimal hesabla məğlub edən R.Cəfərli finala yüksəlib. Həlledici mərhələdə isə karateçimiz Kipr təmsilçisi Louzos Vasiliuya uduzaraq gümüş medalla kifayətlənib.

Çempionatın sonuncu günündə 18-21 yaşadək gənclərin kumite yarışında Əminağa Quliyev (60 kq) Jose Xavieri (Portuqaliya), Maksim Krasnovu (Rusiya), Karmin Lusianonu (İtaliya) məğlub edərək yarımfinala yüksəlib. Bu mərhələdə Pavle Dujakoviçə (Bosniya və Herseqovina) qalib gələn karateçimiz finala yüksəlib. Həlledici mərhələdə Burak Özdəmiri (Türkiyə) məğlub edən Ə.Quliyev ikiqat Avropa çempionu adını qazanıb.

Hüseyn Məmmədli (67 kq) bürünc medal uğrunda Eqor Pulkinə (Rusiya) qalib gələrək üçüncü yeri tutub. Daha bir bürünc medalı isə komandamızın üzvü Mədinə Sadiqova (55 kq) qazanıb. O, həlledici mərhələdə xorvatiyalı Tihana Suleki məğlub edib.

Beləliklə, Avropa çempionatına 24 karateçi ilə qatılan komandamız 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb.

Qitə çempionatının görüşlərini 5 hakimimiz idarə edib. Avropa çempionatında 45 ölkədən 1008 idmançı mübarizə aparıb.

## Yeniyetmə şahmatçılarımız dünya kuboku seçmələrində fərqləniblər

***Rapid üzrə onlayn dünya kuboku turnirinin seçmə mərhələsi çərçivəsində 10, 12, 14, 16 və 18 yaşlı oğlan və qızlar arasında yarışlara yekun vurulub.***

18 yaşlıların mübarizəsində uğurla çıxış edən şahmatçımız Aydın Süleymanlı 8,5 xalla bütün rəqiblərini üstələyərək birinci yeri tutub. 10 yaşlı oğlanların yarışında 9 xalla Xaqan Əhməd, 12 yaşlılarda isə 10 xalla Cahandar Azadəliyev də birinci yeri tutublar.

Yarışda müxtəlif yaş kateqoriyaları üzrə ilk onluqlarda yer alan digər şahmatçılarımız 16 yaşlılar arasında 7,5 xalla 5-ci olan Xəzər Babazadə, 18 yaşlı qızlar arasında 7,5 xalla 3-cü yeri tutan Ayan Allahverdiyeva, 7 xalla 7-ci olan Gövhər Beydullayevadır.

Seçmə mərhələdə hər yaş qrupunda ilk 10 yerin sahibi final mərhələsinə vəsiqə qazanıb. Dünya kuboku yarışlarının final mərhələsi avqustun 26-dan 31-dək keçiriləcək.

## Cüdo üzrə Azərbaycan millisinə yeni məşqçilər təyin edilib



Azərbaycan Cüdo Federasiyasında (ACF) kişilərdən ibarət milli komandaya yeni təyinatlar olub. Pekin Olimpiadasının və açıq dünya çempionatının bürünc mükafatçısı Mövlud Mirəliyev cüdo millimizin baş məşqçisi, Elçin İsmayılov, Elxan Rəcəbli, Şümşad Bəhramov, İlham Məmmədov və Zaur Babayev isə onun köməkçiləri təyin olunublar. Bundan sonra böyüklər və gənclərdən ibarət komandaların birlikdə məşq etməsi qərara alınıb. Yeni təyin olunan məşqçi heyəti hər iki komandaya nəzarət edəcək.

## Aşağı dəstədə dəyişən heç nə yoxdur

***Milli futbol mövsümünün birinci divizionunda ilk turun oyun cədvəli elan edilib. Yarış sentyabrın 14-də başlanacaq. Əvvəlki kimi elita klublarının ikinci heyətləri ilə yanaşı, əsas qələbə uğrunda "Turan Tovuz", "Zaqatala", Gəncənin "Kəpəz"i və paytaxtın ordu idman klubu - MOİK mübarizə aparacaqlar.***

*İlk turun PFL-in rəsmi saytında elan edilmiş təqvim belədir:*

**14 sentyabr** (çərşənbə axşamı)
"Kəpəz" - "Qəbələ-2" Gəncə şəhər stadionu, 16:30
"Neftçi-2" - "Sabah-2" Türk Hava Yolları Futbol Mərkəzi (IV meydança), 17:00 "Keşlə-2" - "Zaqatala" "ASK Arena", 18:30

**15 sentyabr (çərşənbə)**
"Turan Tovuz" - MOİK Tovuz şəhər stadionu, 16:30 "Sumqayıt-2" - "Qaradağ Lökbatan" "Kapital Bank Arena" (ehtiyat meydança), 16:30
"Səbail-2" - "Zirə-2" "ASCO Arena", 18:30

## Formula 1 Yaponiya Qran-Prisi ləğv olunub

Formula 1 Yaponiya Qran-Prisi ləğv olunub. Bu barədə Formula 1-in rəsmi saytı məlumat yayıb.

Məlumatda qeyd edilib ki, pandemiya səbəbindən Yaponiya hökuməti bu mövsüm yarışı ləğv etmək qərarına gəlib.

Formula 1, təqvimin yeni versiyası üzərində işləyir və detallar yaxın həftələrdə açıqlanacaq.




Qəzetin təsisçisi
Azərbaycan Respublikasının
Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

"İdman"ın kompüter mərkəzində yığılıb-səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1576
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.